UOT 338.658.3

*Nazim Tofiq oğlu QƏNİZADƏ*
*i.e.n., dosent, AKU*
*Səbinə Əli Muxtar MUSTAFAYEVA*
*Azərbaycan Kooperasiya Universiteti*
*s.mustafayeva86@gmail.com*

# BİZNESİN STRATEJİ İDARƏ EDİLMƏSİNDƏ İNNOVASİYA LAYİHƏLƏRİNİN STRATEGİYALARI VƏ İQTİSADİ SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI

*Xülasə*

**Tədqiqatın məqsədi:** Tədqiqatın əsas məqsədi biznesdə innovativ layihələrin qiymətləndirilməsi netodlarının inkişaf aspektlərinin tədqiq və eləcə də təhlil olunmasıdır.

**Tədqiqatın metodologiyası:** Tədqiqat aparılarkən ümumiləşdirmə, təhlil metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın tətbiqi əhəmiyyətləri:** Biznesdə innovasiya layihələrinin düzgün qiymətləndirilməsi, səmərəli şəkildə idarə və inkişaf etdirilməsinin bir çox müəssisələr üçün yararı ola bilər.

**Tədqiqatın nəticələri:** Biznes sahəsində innovasiya layihələrinin iqtisadi əhəmiyyətliliyinin təmin olunmasında eləcə də, onların tərtibi, həmçinin qiymətləndirilməsinin müasir şərtlərə uyğun formada aparılması çox böyük əhəmiyyət kəsb edir. Çünki o, innovasiya strategiyalarının formalaşmasının əsas meyarı kimi təqdim olunur.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi:**

-Biznes sistemində innovasiya layihələrinin ən vacib xüsusiyyətləri təhlil edilmişdir;

-Biznesin strateji idarəedilməsində innovativ layihələrin iqtisadi səmərəliliyinin artırılması istiqamətləri müəyyən edilmiş və əsaslandırılmışdır;

-Biznes sistemində innovativ layihələrin hazırlanması eləcə də, qiymətləndirilməsi ilə bağlı olan problemlərin həllinin nəzəri və praktiki məsələləri kompleks öyrənilmişdir;

-Respublikamızda innovativ layihələrin qiymətləndirilməsinin, həmçinin inkişafının müasir vəziyyəti kompleks şəkildə təhlil edilmişdir.

***Açar sözlər: innovasiya, idarəolunma, innovativ layihə, innovasiya strategiyası.***

## *Giriş*

Müasir cəmiyyətdə iqtisadi səmərəliliyin həyata keçirilməsi təkcə elmin və faktiki istehsalın inkişafı yolu ilə deyil, həm də innovasiya dövrünün hər bir mərhələsi əsasında - yeni biliklərin əldə edilməsi və onların istehsal sahəsinə ötürülməsi əsasında həyata keçirilir. Ümumiyyətlə, bu istifadə son məhsul bazarında iqtisadi əhəmiyyətli rəqabət üstünlüyü əldə etmək üçün həyata keçirildikdə, innovasiya dövrünün bütün mərhələləri güclü informasiya, təşkilati, maliyyə və digər bazar amillərindən təsirlənir. İnnovatorların iqtisadi maraqları son nəticədə innovasiyanın aktuallığını, istiqamətini, miqyasını, sürətini və formasını müəyyən edir.

Hər bir təsərrüfat subyektinin mülkiyyət formasından asılı olmayaraq, uğurlu biznes strategiyasının qurulması və həyata keçirilməsi innovasiyaların səviyyəsindən çox asılıdır. Şirkət nə qədər nadir məhsula və ya unikal istehsal üsullarına malik olarsa bir o qədər uğurlu olur. Bu baxımdan innovasiya innovativ məhsulların, proseslərin və biznes modellərinin tətbiqi yolu ilə sosial-iqtisadi sistemin yeni keyfiyyət sisteminə çevrilməsi prosesi deməkdir [4, səh.16]. Yəni innovasiya, bazara əsaslanan araşdırma və həyata keçirilən yenilikləri özündə cəmləşdirir. Biznes sistemi də özlüyündə müəyyən dərəcədə innovasiya hesab edilir. Bazar iqtisadiyyatı, rəqabət şəraitinin mövcudluğunda şirkətlər gəlir və mənfəət artımına nail olmaq üçün yeniliklər etməlidirlər.

İqtisadi ədəbiyyatda innovasiya layihələrinin hazır edilməsi, həmçinin də qiymətləndirilməsi problemlərinin tədqiqi və təhlilinə çox sayda iş ayrılmışdır ki, onların da əksəriyyəti inkişaf etmiş ölkələrin iqtisadi artımı və inkişaf etməkdə olan ölkələrin innovasiya potensialının dəyərləndirilməsi ilə bağlı olur. Kommersiya sistemlərində innovativ layihələrin hazırlanması və qiymətləndi-

rilməsi üzrə tədqiqat işləri ilə Y, Şumpeter, V.Rappoport, N.V.Beketov kimi alimlərin əsərlərində qarşılaşmaq olar.

Bu əsərlər dünyada baş verən ümumi proseslər prizmasından biznes sistemlərində innovativ layihələrin hazırlanması və qiymətləndirilməsini təsvir edir, həmçinin də tədqiq edir. Azərbaycan alimləri biznes sisteminin innovasiya layihələrinin hazırlanması və qiymətləndirilməsində müxtəlif nəzəriyyə, metod və tətbiqlərin tədqiqinə də öz töhfələrini veriblər. Bu əsərlərə A.B.Abbasov, H.H.Kazımlı, M.H.Meybullayev, Q.N.Manafov, T.A.Hüseynov, F.H.Qasımov, T.N.Əliyev, İ.Kərimli, İ.A.Mehdiyev kimi alimlərin tədqiqatları daxildir.

İnnovasiya prosesinin effektivliyi böyük ölçüdə bu sahədə çalışan işçilərin, o cümlədən şirkətlərin, elmi-tədqiqat müəssisələrinin, universitetlərin peşəkar səviyyəsindən və onların yerli, milli və beynəlxalq səviyyədə əlaqələrindən asılı olur. Digər bir tərəfdən isə, innovasiya sisteminin effektivliyinə təsir edən amillərə fərdi və korporativ tədqiqatlara ilham verən şərtlər, maliyyə sisteminin etibarlılığı və bununla bağlı dövlət nəzarətinin effektivliyi daxildir. D.A.Vəliyev innovasiya prosesinin milli iqtisadiyyata müsbət təsir göstərməsi üçün elmi-tədqiqat müəssisələri, universitetlər və sahibkarlar arasında qarşılıqlı əlaqənin yaradılması və inkişafının mühüm şərtlərdən biri olduğunu diqqətə çatdırıb [3, səh.52]. Alimlər innovasiya sisteminin gücləndirilməsi, innovasiya üçün lazımi şəraitin yaradılması, yeni texnologiyaların yayılması, şəbəkələrin tətbiqi və bu sahədə milli vəzifələr siyahısına diqqət yetirilməsini vacib sayırlar.

**İnnovasiya strategiyası**

İnnovasiya strategiyası innovasiya layihəsi əsasında müəyyən edilir. Məlumdur ki, innovasiya strategiyasının formalaşdırılması müxtəlif innovasiya layihələrinin əlaqələndirilməsinə imkan yaradır. Məhz bu iki fəaliyyət öz tamamını tapır. Buna görə də, layihənin təhlili strateji planın düzgünlüyünü yoxlamaq üçün rəy verir. İnnovasiya strategiyasının müəyyən edilməsi bir çox amillərdən asılı olur. İnnovasiya layihəsi innovativ fəaliyyətlə bağlı iqtisadi, hüquqi, texniki, həmçinin də digər məsələlərin və tədbirlərin planlaşdırılmasını, həyata keçirilməsini tənzimləyən sənədlər toplusudur.

İnnovasiya layihəsi üç inkişaf mərhələsindən ibarət olur: [8, səh.225]

-layihənin hazırlanması mərhələsi;

-innovasiya mərhələsi;

-istismar mərhələsi.

İnnovasiya fəaliyyətinə daxildir:

1. İnnovasiya strategiyasının müəyyən edilməsi;
2. Strateji planlaşdırma;
3. İnnovasiya layihələrinin formalaşdırılması və həyata keçirilməsi.

İnnovasiya strategiyası mövcud xüsusi maliyyə resurslarının və borc vəsaitlərinin əldə edilməsi fonunda yeni və innovativ uzunmüddətli inkişaf metodunun seçilməsidir. [5, səh.15]

İnnovativ layihələrin inkişafı aşağıda qeyd olunan mərhələlərdən ibarətdir:

1. İnnovativ ideyaların formalaşması;
2. Layihənin hazırlanması və texniki-iqtisadi əsaslandırma;
3. Layihə vəsaitlərinin mənbəyini müəyyən etmək;
4. Qiymətləndirmə sənədlərinin tərtibi;
5. İnnovasiya layihəsinin icra ili haqqında yekun qərar təsdiq edilməsi.

Müasir şəraitdə innovativ layihələr hazırlayarkən innovativ fəaliyyətin səmərəliliyinə təsir edən müxtəlif xarici və daxili amilləri təhlil etmək lazımdır. Layihə ideyasının mümkünlüyü ilə bağlı bu amillərə texniki, kommersiya, institusional, sosial, ekoloji, maliyyə və iqtisadi amillər daxildir. Qeyd edim ki, texniki-iqtisadi əsaslandırmanın qiyməti nisbətən yüksəkdir.

Xammal yönümlü iqtisadi inkişaf innovasiyanın inkişafını ləngidir və texnoloji geriliyə səbəb olur. İnnovativ informasiya texnologiyalarının inkişafı Azərbaycanı iqtisadi cəhətdən ən inkişaf etmiş ölkələrdən birinə çevirmək üçün makro strategiyanın əsasını təşkil edir. Bu nöqteyi-nəzərdən ölkədə, xüsusən də regionda innovativ iqtisadiyyatın formalaşması və inkişafı lazımdır. Müxtəlif

bazar iqtisadiyyatlı ölkələrin inkişaf strategiyaları beynəlxalq təcrübədə aparıcı mövqedədir və nəhayət, elmi-texniki tərəqqinin sürətli artımını, əmtəələrin rəqabət qabiliyyətini və yüksək standartı şərtləndirən davamlı innovasiya axtarışı əsasında formalaşır. Lakin onu da söyləmək lazımdır ki, Azərbaycanda dəqiq innovasiya strategiyası yoxdur və innovasiya fondları qalıq prinsipi əsasında ayrılır. [1, səh. 55]. Bununla belə, unutmaq olmaz ki, innovasiyanın səviyyəsi son nəticədə məhsuldarlığın inkişaf səviyyəsini müəyyənləşdirir.

Azərbaycanda regional innovasiyaların idarə edilməsi sisteminin təhlili onu göstərir ki, onların qarşılaşdığı mühüm və ənənəvi problem regional innovasiya potensialının reallaşdırılması üçün lazım olan dəqiq innovasiya strategiyasının olmamasıdır. Geniş araşdırmamız nəticəsində biz Azərbaycan regionu üçün regional planlaşdırmanın analitik metodlarından və Avropa ekspert xidməti olan TACIS EES-in tədqiqat qrupu tərəfindən hazırlanmış metodlardan istifadə etməklə innovasiya strategiyalarının layihələndirilməsi mexanizmi təklif edilir. Dizaynın əsas mərhələləri aşağıdakılardır: [3]

- Regionda iqtisadi və institusional auditlərin aparılması;
- Regionda iqtisadi şəraitin təhlili;
- Strategiyanın hədəf aldığı “kritik” uğur amillərini müəyyən etmək;
- Əsas məqsədlərin izahı;
- Ən yaxşı strategiya metodunu müəyyən etmək;
- Strateji siyasətin qısa təsviri;
- Hər bir əsas məqsəd üçün mühüm olan fəaliyyət planının müəyyənləşdirilməsi.

Bu üsula əsaslanan tədqiqat nəticələri regional təsərrüfat kompleksinin dirçəlişinə və inkişafına töhfə verən əsas uğur amillərini üzə çıxaracaqdır.

Kommersiya sahəsində innovativ layihələrin iqtisadi səmərəsini təmin etmək üçün onların müasir tələblərə uyğun dizaynı və qiymətləndirilməsi son dərəcə vacibdir, çünki bu, əslində innovasiya strategiyasının formalaşdırılması üçün əsas meyardır[11].

İnnovativ layihələrin effektivliyini qiymətləndirmək üçün müxtəlif üsullardan istifadə olunur. İnnovativ layihələrin qiymətləndirilməsində vaxt faktorunun nəzərə alınıb-alınmaması səbəbi ilə qiymətləndirmə üsulları iki kateqoriyaya bölünür:

1. Diskontlaşdırma əsasında olan qiymət metodu;
2. Mühasibat uçotu əsasında yaranan üsullar.

Birinci qrupda mövcud olan metodlara xalis cari dəyər, daxili gəlirlilik dərəcəsi və mənfəət indeksi göstəriciləri, ikinci qrup metodlara isə investisiyanın qaytarılma müddəti və investisiya gəliri göstəriciləri daxildir. Diskontlaşdırma əsasında qiymətləndirmə metodu pulun zaman dəyərinə əsaslanır. Bazar iqtisadiyyatı şəraitində maliyyə resurslarından istifadə zamanın nəzərə alınmasını tələb edir. Bu gün alınan müəyyən məbləğdə nağd pulun dəyəri gələcəkdə əldə edilə biləcək nağd pulun dəyərinə bərabər olmur. Birinci məbləğ ikinci məbləğdən daha qiymətlidir. Buna görə də mövcud nağd puldan istifadə müəyyən miqdarda gəlir gətirəcək. Bu nöqteyi-nəzərdən pulun dəyəri zamandadır. Bu prinsipə görə, əgər gəlir əldə etməyin başqa yolları varsa, o zaman pulun dəyəri gözlənilən daxilolma anından asılıdır.[6, səh.210].

Araşdırmalarım nəticəsində tədqiqatçı alim İ.Fişerin fikirlərinə diqqət yetirdim. Belə ki, alim müəyyən etmişdir ki, innovativ layihələrin effektivliyinin qiymətləndirilməsi metodu cari istehlakdan çox gələcək istehlak üçün şəxsi üstünlükdən asılı olmur. Həmçinin menecerlər şirkətin səhmdarlarının şəxsi üstünlüklərini başa düşməyə və onların üstünlüklərinə uyğun hərəkət etməyə ehtiyac duymurlar. Onların vəzifəsi xalis cari dəyəri maksimuma çatdırmaqdır. Əgər menecerlər bu sahədə uğur qazanarsa, o zaman onların hərəkətləri səhmdarların mənafeyinə uyğun olar.

**Biznesin strateji idarə edilməsində innovasiya layihələrinin iqtisadi səmərəliliyinin artırılması**

Strateji biznesin idarə edilməsi nəzəriyyəsi, həmçinin şirkətin monitorinq və təhlil alətlərini, eləcə də xarici siqnallara tez bir şəkildə reaksiya vermək qabiliyyətini təkmilləşdirmək üçün şirkətin daxili strukturuna təsir edən alətləri əhatə edir. Strateji idarəetmə korporativ fəaliyyətlərin təşkili prosesidir.

Korporativ idarəetmədə strategiyalar müxtəlifliyi ilə tanınır, yəni istifadə məqsədi və xüsusiyyətlərinə görə strateji strategiyalar, çoxməqsədli strategiyalar, satış və mənfəət dinamikası strategiyaları, yerləşdirmə strategiyaları, artım strategiyaları, bazara daxil olma strategiyaları, təşkilati inkişaf strategiyaları və s. ayrıldı [10, səh.156].

Biznes strategiyası gələcək üçün nəzərdə tutulmuş və təşkilatın konkret məqsədlərinə nail olunmasını təmin edən tədbirlər sistemi deməkdir.

Müasir mərhələnin inkişafında mövcud olan strateji idarəetmə sistemi aşağıdakılardan ibarətdir:

-Strateji məqsədlərlə bağlı olaraq, resursların ayrılması;

-Hər bir strateji məqsəd üçün liderlik mərkəzinin yaradılması;

-İstehsalat bölmələrini və onların rəhbərlərini strateji məqsədlərə nail olma dərəcəsinə görə qiymətləndirmək və həvəsləndirmək.

İqtisadiyyat ədəbiyyatında qeyd olunan kimi, strateji idarəetmənin yaranması və reallaşması bir-biri ilə əlaqəli aşağıdakı beş məsələni əhatə edir:

1. Şirkətin biznes sahələrinə və strateji planlaşdırılmasına qərar vermək;
2. Strateji proqnozları, fəaliyyətləri konkret məqsəd və vəzifələrə ayırmaq;
3. Qarşıya qoyulan məqsədlərə nail olmaq üçün strategiya hazırlamaq;
4. Qəbul edilmiş strategiyanın həyata keçirilməsini məqsədyönlü şəkildə təşkil etmək;
5. İşin nəticələrini qiymətləndirərək, bəzi halları nəzərdən keçirmək və zəruri hallarda gələcək inkişaf üçün düzəlişlər etmək.

Professor. T.A.Quliyev haqlı olaraq hesab edir ki, qlobal strategiyada aşağıdakı amilləri nəzərə almaq lazımdır [2, səh 89].

- şirkətlərin və firmaların resursları, strateji bazarın operativ formada qiymətləndirilməsi;
- rəqabətin variant təhlili;
- ümumi və xüsusi meyillərin və mövqelərin müəyyən edilməsi;
- malların seçimi, qiymətlərə sistemli formada yanaşma, əlaqələrin, işlərin seçilməsinin təşkili və marketinq strategiyası.

Müasir şəraitdə korporativ strategiyanın işlənib hazırlanmasına münasibət dəyişmişdir. Əvvəllər strategiya təşkilatın rəqabətə qarşı mübarizədə üstünlük verdiyi vasitə hesab olunurdusa, o, təşkilatın məhdud rəhbərlik dairəsi tərəfindən tanınırdı və indi açıq strategiya ilk seçimdir.

İnkişaf etmiş bazar iqtisadiyyatı şəraitində innovativ layihələrin əksəriyyəti müxtəlif səviyyəli və miqyaslı özəl şirkətlər tərəfindən həyata keçirilir. Kommersiya layihələrində belə yeniliklərin tətbiqi şirkətin istehsal və kommersiya vəzifələrini həll etmək üçün ən yaxşı həll yoludur. Bazar sistemində müasir təkrar istehsal prosesinin digər komponentləri kimi, innovasiya da son nəticədə inkubator şirkətinin və innovasiya prosesinin digər iştirakçılarının mənfəətinin maksimuma çatdırılmasının faktiki kommersiya effekti deməkdir [9, səh.86].

İlkin elmi ideyalar da innovasiya prosesinin ilkin mərhələsi kimi kommersiya mənşəlidir. Çünki bu, təkcə alimlərin müstəqil elmi yaradıcılıq prosesi deyil, həm də müvafiq laboratoriya avadanlıqlarına yatırılan vəsaitlərin təsiridir. İnnovativ konsepsiyanın faktiki istehsal effekti istehsal şirkətlərini müəyyən təcrübə səviyyəsinə və praktik nəticələrə çatana qədər vəsait toplamağa həvəsləndirir.

Ümumiyyətlə onu da qeyd edim ki, idarəetməni asanlaşdırmaq üçün innovativ layihə idarəetməsinin aşağıdakı prinsipləri nəzərə alınmalıdır:

- Seçmə idarəetmə prinsipi. Burada əsas məqsəd prioritetləri seçməkdir. Əslində, bu, innovativ şirkətlər və innovatorlar üçün ünvanlı dəstəkdir.
- Layihələrin son məqsədə çatmağa yönəldilməsi prinsipi. Bu prinsip innovasiyaların yaradılması zamanı istehlakçılar arasında qarşılıqlı əlaqənin və onların həyata keçirilməsi imkanlarının müəyyən edilməsini nəzərdə tutur. Bu zaman konkret layihələrin yekun məqsədləri istehlakçılara yönəldilir.
- Layihənin idarə edilməsi dövrünün tamlığı prinsipi.
- İnnovativ proseslərin və layihənin idarə olunması proseslərinin mərhələliliyi prinsipi.

- İnnovasiya proseslərinin təşkilinin iyerarxiyası prinsipi. Bütün fəaliyyət səviyyələri bir-birinə uyğundur.
- İdarəetmə qərarlarının seçimində plüralizm prinsipi.
- Sistemlilik prinsipi. Layihənin təşkil edilməsi üçün lazımi tədbirlər kompleksi işlənib (təşkilati, inzibati və s.) hazırlanmışdır.
- Təminatlılıq və ya balans prinsipi. Bütün fəaliyyətlər lazımi resurslarla təmin edilməlidir.

Azərbaycan iqtisadiyyatının davamlı inkişaf sürətinin sabitləşdirilməsi və cəmiyyətin maddi rifahının yüksəldilməsi yalnız resursların yeni texnoloji sistemin formalaşdırılmasının kövrək istiqamətinə cəmləşdirilməsi, innovasiya və investisiya fəaliyyətinin dəfələrlə artırılması əsasında mümkün ola bilər.

Təcrübə onu da göstərir ki, əgər yeni texnologiya köhnə texnologiyadan tamamilə fərqli olarsa, şirkətlər çox vaxt əvvəlki rəhbər vəzifələrindən imtina edirlər. Çünki yeni texnologiyaların meydana çıxması ilə şirkətlər köhnə texnologiyalar əsasında yeni məhsullar yaratmaq üçün rəqabət prosesində xeyli vəsaitdən istifadə edir. Buna görə də, onun elmi tədqiqatlara tətbiqi xərcləri köklü texnoloji dəyişikliklərə psixoloji maneədir və bu da öz növbəsində daha az tanınan şirkətlərin rəqabətdə qalib gəlməsinə kömək edir.

İnnovasiya prosesində dövlət maliyyəsinin əhəmiyyətli dərəcədə güclənməsi dövlətin innovasiya sahəsində rolunun və onun innovasiya prosesinə təsirinin yüksəldilməsini təmin edir, struktur və investisiya məsələlərinin əhatə dairəsini sürətləndirir. İnnovasiya fondlarından istifadənin səmərəliliyi onun formalaşmasının əsas prinsiplərinə əsaslanır: milli iqtisadiyyatın mühüm sahələrinə investisiya qoyan dövlət-müəssisə tərəfdaşlığı; makroiqtisadi təhlil əsasında dövlət yardımı tələb edən innovasiya layihələrinin variantları.

Son olaraq onu da qeyd etmək istəyirəm ki, aşağıda qeyd olunan istiqamətlərdə, innovativ layihələrin həyata keçirilməsinə dövlət yardımı göstərilməkdədir:
- Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı;
- Azərbaycan innovasiya sisteminin yaradılması və inkişafı elementləri;
- İnstitusional dəyişikliklərin təmin edilməsi.

Dövlət yardımı göstərmək iddiasında olan innovativ layihələrin seçimi aşağıdakı prinsiplərə əsaslanır:
- İnnovativ layihələrin müəyyən edilmiş standartlara cavab verməsi;
- Dövlət yardımının göstərilməsi prosesində bərabər iştirakın təmin edilməsi;
- İnnovativ layihələrin zərərsizliyi;
- Ölkə riskini bölüşdürmək üçün özəl kapitaldan istifadə etmək;
- Azərbaycan Respublikasının Ədalətli Rəqabət və Antiinhisar Qanununun müddəalarına riayət etmək.

### *Nəticə*

1.İnnovasiya fəaliyyəti bazarda tətbiq edilən yeni, yaxud təkmilləşdirilmiş texnoloji məhsula, istehsalatda istifadə olunan yeni və ya təkmilləşdirilmiş prosesə yönəlmiş elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin, habelə elmi-texniki nailiyyətlərin nəticələrinin əldə edilməsi və ya çevrilməsi ilə bağlı fəaliyyət növüdür. İnnovativ fəaliyyət müəssisənin biznesinin müvəffəqiyyətlə qorunması və inkişafı üçün əsas şərtlərdən biridir. Belə ki, innovasiyaların idarə edilməsi strategiyası ölkə iqtisadiyyatının əsaslarından biri olmaqla biznes strukturunun uzun zaman mövcudluğunu nəzərdə tutur.

2. Düşünürəm ki, innovativ layihələrin ekspertizası və seçilməsi üçün metodologiya hazırlamaq lazımdır. Fikrimizcə, bu texnikaya innovativ layihənin inteqral göstəricisinin formalaşması üçün çoxsəviyyəli sxem daxil edilməlidir. İnnovativ biznes layihələrinin iqtisadi səmərəliliyini təmin etmək üçün onların müasir tələblərə uyğun ümumiləşdirilməsi və qiymətləndirilməsi son dərəcə vacibdir, çünki bu, əslində innovativ strategiyaların formalaşması üçün əsas meyardır.

3. İdarəetməni asanlaşdırmaq üçün innovativ layihə idarəetməsinin aşağıdakı prinsipləri nəzərə alınmalıdır:

- Seçmə idarəetmə prinsipi;
- Layihələrin son məqsədə çatmağa yönəldilməsi prinsipi;
- Layihənin idarə edilməsi dövrünün tamlığı prinsipi;
- İnnovativ proseslərin və layihənin idarə olunması proseslərinin mərhələliliyi prinsipi;
-İnnovasiya proseslərinin təşkilinin iyerarxiyası prinsipi;
- İdarəetmə qərarlarının seçimində plüralizm prinsipi;
- Sistemin prinsipi;
- Təminatlılıq və ya balans prinsipi.

4. İnnovasiyaların inkişafı və onların praktiki tətbiqi prosesinin idarə olunması Azərbaycan elmində tədricən müstəqil istiqamətə çevrilir. Müasir yerli müəssisələr üçün innovasiya prosesinin daimi inkişaf tendensiyası əsas obyektiv zərurətdir.

Ölkənin bütün təsərrüfat subyektlərində innovativ tədbirlərin tətbiq dairəsini genişləndirmək və səmərəliliyin keyfiyyətini yüksəltmək üçün xüsusi bölmələr və xidmətlər yaradılmalıdır. İnnovasiya sistemi daha çox innovasiyaların yaradılması prosesinin idarə edilməsini, kollektivin yaradıcı potensialından daha səmərəli istifadəni əhatə etməlidir.

## ƏDƏBİYYAT

1. Qədirov H., Muradov A. İntellektual mülkiyyət obyektlərinin qiymətləndirilməsinə dair, "Müasir əmlak bazarı və qiymətləndirmə fəaliyyətinin qanunvericilik təminatı" mövzusunda II beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, 2001.
2. Quliyev T. A., İnflyasiyanın anatomiyası. Bakı, 2006, 277 s.
3. Vəliyev D.A. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası. Bakı, 2008, maddə 428.
4. Савельева И.Н. Развитие малого инновационного предпринимательства в промышленности. Автореферат дисс. на соиск. Ученой степени кондидата экономических наук. Екатеринбург-2011, 27с.
5. Бирман Г., Шмидт С. Капитаовлажения. Экономический анализ инвестиционных проектов. М. ЮНИТИ-ДАНА, 2003, 631 с.
6. Гитман Л., Джонк М. Основы инвестирования. М. Дело, 1997, 1008 с.
7. Гершман М. А. "Инновационный менеджмент". М. Маркет ДС, 2008, 200 с.
8. Олейникова Е.А. "Экономическая и национальная безопасность", М. Изд-во, «Экзамен», 2004, 768 с.
9. Тычинский А. В. "Управление инновационной деятельностью компаний: современные подходы, алгоритмы, опыт". Таганрог, ТРТУ, 2006, 128 с.
10. Afuah, A. "Innovation Management: Strategies, Implementation, and Profits", 2003, NY: Oxford University Pres, 172 p.
11. Tidd J., Bessant J., Pavitt K. "Managing Innovation: Integrating Technological, Market and Organizational Change" Wiley, 2005, 189 p.

***Назим Тофик оглы Ганизаде***
***кандидат экономических наук, доцент,***
***Сабина Али Мухтар кызы Мустафаева***
***Азербайджанский Университет Кооперации***
***s.mustafayeva86@gmail.com***

## Стратегии и повышение экономической эффективности инновационных проектов в стратегическом управлении бизнесом

***Резюме***

**Цель исследования:** изучить и проанализировать аспекты развития оценки инновационных проектов в бизнесе.

**Методология исследования:** В исследовании использованы методы обобщения и анализа.

**Значение применения исследования:**. Правильная оценка, эффективное управление и развитие инновационных бизнес-проектов могут быть выгодны многим предприятиям.

**Результаты исследования:** Очень важно обеспечить экономическую значимость инновационных бизнес-проектов, а также их разработку и оценку в соответствии с современными условиями. Потому что он преподносится как главный критерий формирования инновационной стратегии.

**Оригинальность и научная новизна исследования:**

- Проанализированы важнейшие особенности инновационных проектов в системе бизнеса;
- определены и обоснованы направления повышения экономической эффективности инновационных проектов в стратегическом управлении бизнесом;
- всесторонне изучены теоретические и практические вопросы решения задач, связанных с развитием инновационных проектов в системе бизнеса, а также их оценка;
- Современное состояние оценки и развития инновационных проектов в нашей стране всесторонне проанализировано.

***Ключевые слова: инновации, менеджмент, инновационный проект, инновационная стратегия.***

***Nazim Tofik Ganizade***
***PhD in Economics, associate professor,***
***Sabina Ali Mukhtar Mustafaeva***
***Azerbaijan Cooperation University***
***s.mustafayeva86@gmail.com***

**Strategies of innovation projects in the strategic management of business and increasing its economic efficiency**

***Summary***

**Purpose of the research:** The main purpose of the research is to study and analyze the aspects of the development of the assessment of innovative projects in business.

**Research methodology:** The study used the methods of generalization and analysis.

**Significance of the application of the research:** Correct assessment, effective management and development of innovative business projects can be beneficial to many enterprises.

**Results of the study:** It is very important to ensure the economic significance of innovative business projects, as well as their development and assessment in accordance with modern conditions. Because it is presented as the main criterion for the formation of an innovative strategy.

**Originality and scientific novelty of the research:**

- Analyzed the most important features of innovative projects in the business system;
- identified and substantiated directions for increasing the economic efficiency of innovative projects in strategic business management;
- comprehensively studied theoretical and practical issues of solving problems related to the development of innovative projects in the business system, as well as their assessment;
- The current state of the assessment and development of innovative projects in our country has been comprehensively analyzed.

***Key words: innovation, management, innovation project, innovation strategy.***